# Giriş

Xristianlığın əvvəllərində fəlsəfə yuxuya getmişdi. Nəticədə, bu mürgüləmə Aristotel və kilsənin təlimlərinə əsaslanan, Sxolastika kimi tanınan fəlsəfi yuxunu doğurdu.

Fəlsəfə XVII əsrdə Dekartın “Cogito ergo sum” (Düşünürəmsə, varam) bəyanatı ilə bu orta əsr yuxusundan diksinərək oyandı. Bundan sonra aydınlanma dövrü başlamışdı, yəni artıq bilik əqlə əsaslanırdı. Ancaq Dekart yatan elm adamlarına nisbətən daha çox oyanmışdı. O həmçinin ingilisləri də oyatmışdı. Onlar tezliklə Dekartın rasional iddiasına cavab verib israr etdilər ki, bizim biliklərimiz əqlə yox, təcrübəyə əsaslanır. Öz səyləri ilə bu Britaniya empirikləri əqlin bütün görünüşünü məhv edib fəlsəfəni getdikcə azalan hisslər silsiləsinə

endirdilər. Fəlsəfə yenidən yuxuya getmək təhlükəsi ilə üz-üzə idi. XVIII əsrin ortalarında isə Kant öz ehkamçı yuxusundan oyandı və bütün orta əsrlər boyu fəlsəfəni yatızdıran sistemdən daha böyük fəlsəfi sistem yaratdı. Fəlsəfə yaxında bir daha Rip van Vinklı təqlid edəcək kimi görünürdü. Hegel bu yuxulu vəziyyətə özünəməxsus nəhəng, sistematik, dörd dirəkli çarpayı düzəldərək reaksiya verdi. Şopenhauer fərqli bir üsul sınamaq qərarına gəldi və o Kant yatağına acı bibərli şərq fəlsəfəsi layihəsini daxil etdi. Bütün bunlar özünü oda atan və hər kəsi uzun zaman oyaq saxlayacaq bir fəlsəfəni uca səslə elan edən gənc Nitsşenin oyanmasına səbəb oldu.

## Nitsşenin həyatı və əsərləri

Nitsşenin gəlişi ilə fəlsəfə yenidən təhlükəli olur, amma bu dəfə yaranan təhlükə fərqli idi. Əvvəlki əsrlərdə fəlsəfə filosoflar üçün təhlükəli idi, amma Nitsşenin gəlişi ilə fəlsəfə artıq hamı üçün təhlükəli olacaqdı. Bu prosesin sonunda Nitsşe dəli olacaq və bu onun sonrakı yazılarının üslubunda özünü göstərəcəkdi. Lakin təhlükəli fikirlər onun dəli olmasından xeyli əvvəl ortaya çıxmağa başlamışdı və klinik dəliliklə heç bir əlaqəsi yox idi. Bu ideyalar XX əsrin birinci yarısında Avropada dəhşətli nəticələrə səbəb olacaq və bu gün təkrarlanmasının təhdidedici əlamətlərini göstərən kollektiv dəlilikdən xəbər verirdi.

Nitsşenin fövqəlinsan, əbədi təkrarlanma (həyatımızı əbədiyyət boyu təkrar-təkrar ya-

şadığımıza dair ideya), ya da sivilizasiyanın yeganə məqsədi (Höte, Napoleon və ya onun özü kimi "böyük insanlar" yaratmaq) kimi fəlsəfi ideyaları öz adlarına sadiqdir. Onun hakimiyyət iradəsi ideyasından universal şərh kimi istifadə etməsi ya bəsit, ya da mənasızdır – hətta bununla müqayisədə Freydin monizmi daha mahir, Şopenhauerin az spesifik olan konsepsiyası isə daha çox inandırıcıdır. Yaxşı konspirasiya edilmiş nəzəriyyə kimi Nitsşenin hər şeyə nüfuz edən hakimiyyət iradəsi təlimi özündə paranoyanın adəti elementlərini ehtiva edir. Lakin Nitsşenin fəlsəfəsi ondan əvvəl və sonra olacaqların hər hansı birinə xas olmayacaq qədər misilsiz, inandırıcı və dərindir. Onu oxuduqda həyəcanla fəlsəfənin, həqiqətən, vacib olduğunu hiss edirsən (Bu, Nitsşeni bu qədər təhlükəli edən səbəblərindən biridir). Hakimiyyət iradəsi anlayışının sırf analitik alət kimi istifadə edilməsi əvvəllər nəzərə alınmayan insan motivlərinin tərkib elementlərinin üzə çıxarılmasına imkan verirdi.

Bu ona insanda sözügedən motivlərin doğurduğu dəyərləri ifşa etməyə və geniş tarix lövhəsində həmin dəyərlərin təkamülünü izləməyə, sivilizasiya və mədəniyyətimizin əsl əsaslarını işıqlandırmağa imkan verirdi.

Nitsşe öz adından irəli sürülən təhlükəli cəfəngiyyatdan tamamilə azad olmasa da, qeyd etmək lazımdır ki, bu tənqidlərin əksəriyyəti filosofun, əslində, nə demək istədiyinin mənasının təhrifi idi. Nitsşenin müasiri olan protofaşistlər onda nifrətdən başqa heç bir hiss oyatmır, antisemitizm onu iyrəndirir və irqi cəhətdən təmiz almanlardan ibarət bir millətin hakim irqə çevrilməsi fikri, şübhəsiz ki, onda tam bir yumor hissi yaradırdı. Əgər o, XX əsrin 30-cu illərinə, yəni 80 yaşlarına çatsaydı (və əlbəttə ki, sağlam düşüncəsini qoruyub saxlaya bilsəydi), şübhəsiz ki, Nitsşe özünü onun varisləri elan edən o dövrün bəzi alman filosofları kimi vətənində baş verən tragikomik hadisələrə səssiz qalmazdı.

Fridrix Vilhelm Nitsşe 1844-cü il oktyabrın 15-də o zamanlar böyüyən Prussiya krallığının